# ŞUŞANIN OĞLU ASƏF

*Şəhid baş leytenant Asəf Abid oğlu Ağayevin nurlu xatirəsinə həsr edilmişdir.*
*(24.11.1993-cü il Qax rayonu - 17.12.2020-ci il Xocavənd rayonu)*



Asəf Abid oğlu Ağayev 24 noyabr 1993-cü ildə Qax rayonunda dünyaya göz açmışdır.

O, 2009-cu ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olmuş, 2012-ci ildə həmin təhsil müəssisəsini bitirmiş, bundan sonra 2012-2016-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali təhsil almışdır.

Asəf 2016-ci ildə Ali hərbi məktəbdə təhsilini müvəffəqiyyətlə başa vurub baş leytenant rütbəsi alaraq Azərbaycan Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı dəstəsində xidmətə başlamışdır.

Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən başlanan Vətən müharibəsində Asəf Ağayev ilk anlardan iştirak etmiş, Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə igidliklə döyüşmüş, Azərbaycan silahlı qüvvələrinin düşmən üzərində müvəffəqiyyətli qələbəsində Asəfin böyük rolu olmuş, məhz buna görə də 10 dekabr 2020- ci ildə Bakı şəhərində Azadlıq meydanında keçirilən Qələbə Paradında qalib ordunun qalib döyüşçüsü kimi Asəf də iştirak etmişdir.

Baş leytenant Asəf Ağayev 17 dekabr 2020-ci ildə Xocavənd rayonu istiqamətində düşmən tərəfin basdırdığı minaya düşərək şəhid olmuşdur.

Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Asəf Ağayev ölümündən sonra «Cəbrayılın azad olunmasına görə» medalı ilə təltif edilmişdir.

Bundan əlavə Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda gedən döyüş əməliyyatlarında göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Asəf Ağayev ölümündən sonra «Şuşanın azad olunmasına görə» medalı ilə təltif edilmişdir.

Eyni zamanda Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi igidliklərə görə Asəf Ağayev ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən «Füzulinin azad olunmasına" və "Xocavəndin azad olunmasına görə», "İgidliyə görə", "Şücaətə görə", «Vətən uğrunda» medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir. Şəhidimizin əziz xatirəsinə həsr etdiyim "Şuşanın oğlu Asəf" şeirini böyük qürurla təqdim edir və Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm!

Sən cəngavər bir zabit, şərəfli bir igidsən,
Ölümünlə dirilik suyun içən Şəhidsən!
Məğlub etdin düşməni, dəqiq vurdun hədəfi,
Xalqın unutmaz səni – Şuşa oğlu Asəfi!

Döyüşlərin ən ağır günlərində doğuldun,
Cavanşirin ruhuyla, inadıyla yoğruldun,
Vətən Səni yetirdi, Sən Vətənə söz verdin,
Sözünə əməl etdin, Şuşa Fatehi oldun!

Sən Zəfər Paradında özünü göstərdin ər,
Sən qanlı savaşlarda göstərdin neçə hünər.
Qələbənin eşqiylə Səndən güc aldı əsgər,
Qarabağı qaytarıb, qisas, öc aldı əsgər!

Döyüşkənliyinlə şad oldu şəhidlər ruhu,
Sənin əməyin ilə çin oldu əsas yuxu,
O yuxuda xəyali gəzirdik Qarabağı,
İndi biz Şuşadayıq, məhv edilibdir yağı!

Sən şəhid olan gündən gözlər Səni axtardı,
"Asəf burda olsaydı, Şuşadan danışardı!",
Ürəklərdə yurd saldı Sənli olan arzular,
Gəl, ey qəhrəman zabit, qışa dönməsin bahar...

Sən Tovuzda Zəfərli ümidlərlə dolusan,
Sən Şuşada taclanan yurdun Zəfər Yolusan,
Asəf, Şuşa deyəndə qarşımda canlanırsan,
Sən Şuşa şəhərinin fatehtək simvolusan!

Sən qəhrəman döyüşçü , yenilməz bir igidsən,
Yurdun azadlığıyçün öz canından keçmisən!
Məhv etdin düşmənləri, Babəkimin sələfi,
Xalqım unutmaz Səni – Şuşa oğlu Asəfi!

Sevindik Nəsiboğlu *13.07.2021*